

# Şərq qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 113 (24.000)

*19 iyun 2022-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Naxçıvanda Birinci Beynəlxalq Tibbi Forumun açılışı olub

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2022-ci il iyunun 10-da “Naxçıvan Muxtar Respublikasında Birinci Beynəlxalq Tibbi Forumun keçirilməsi haqqında” Sərəncam imzalamış, forumun keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılmışdır.

İyunun 18-də Naxçıvan Dövlət Milli Dram Teatrında Birinci Beynəlxalq Tibbi Forumun açılış tədbiri keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov forumun açılışında iştirak etmişdir.

Əvvəlcə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli, Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev, Endoskopik Laparoskopik Cərrahi Dərnəyinin fəxri sədri Cavid Avcı, Türkiyənin Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl, Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı və forum iştirakçıları əczaçılıq məhsullarının və tibbi avadanlıqların sərgisinə baxmışlar. Bildirilmişdir ki, foruma 20-dən artıq tədris və tibbi ləvazimat, dərman və qida məhsulları istehsalı və satışı həyata keçirən şirkət qatılmışdır.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Birinci Beynəlxalq Tibbi Forumun iştirakçılarını qədim Azərbaycan torpağı Naxçıvanda salamlayaraq demişdir: Sağlam cəmiyyətin formalaşmasında səhiyyənin mühüm rolu vardır. Ona görədir ki, tarixən tibb elminə, həkimlik sənətinə qayğı insanlığa qayğı kimi dəyərləndirilmişdir. Müasir dövrdə də ölkələrin inkişafında əhalinin sağlamlıq səviyyəsi və tibbi xidmətlə təminat əsas göstərici hesab olunur. Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə bu məsələni diqqətdə saxlamış, Azərbaycanda səhiyyə quruculuğu geniş vüsət almışdır. Ulu öndərin əsasını qoyduğu səhiyyə islahatları ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.







Ali Məclisin Sədri demişdir: Naxçıvan Muxtar Respublikasında da əhalinin sağlamlığının qorunması və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması həyata keçirilən sosial-iqtisadi islahatların başlıca istiqamətidir. Müstəqillik illərində muxtar respublikada 200-dən artıq səhiyyə müəssisəsi tikilmiş, ən son tibbi avadanlıqlar quraşdırılmışdır. Müasir tələblər səviyyəsində qurulmuş xəstəxanalar muxtar respublika səhiyyəsini yeni inkişaf mərhələsinə çıxarmışdır. Hazırda Naxçıvanda 28 muxtar respublika, şəhər, rayon, qəsəbə və kənd sahə xəstəxanası, mərkəz və dispanser, birlik, eləcə də 85 həkim ambulatoriyası, 94 feldşer-mama və tibb məntəqəsi vasitəsilə əhaliyə hərtərəfli tibbi xidmət göstərilir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin də fəaliyyəti təmin edilmişdir. Bütün bunların nəticəsidir ki, muxtar respublikada insan sağlamlığının başlıca şərti olan sanitar-epidemioloji vəziyyət sabitdir.

“Səhiyyənin inkişafı müasir infrastruktur təminatı ilə yanaşı, həm də ixtisaslı kadr hazırlığından başlayır”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, muxtar respublikada bu iş paralel şəkildə həyata keçirilir, orta ixtisaslı və ali təhsilli tibbi kadr hazırlığına böyük əhəmiyyət verilir. 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin fəaliyyətə başlaması və ötən dövrdə keçdiyi böyük yol muxtar respublikada ixtisaslı həkim hazırlığı sahəsində mühüm mərhələdir. Hazırda fakültədə Tibb, İctimai səhiyyə, Hərbi tibb, Psixologiya, Əczaçılıq, Stomatologiya, Tibbi profilaktika və Müalicə işi ixtisasları üzrə həkim, eləcə də rezident hazırlığı həyata keçirilir. Fakültənin məzunları peşəkar həkim kimi Azərbaycanda və dünyanın bir çox ölkələrində fəaliyyət göstərirlər. Bununla yanaşı, Naxçıvan Tibb Kollecində də Müalicə işi, Mamalıq işi, Tibb bacısı, Əczaçılıq, Ortopedik stomatologiya, Laboratoriya diaqnostikası, Müalicə masajı və Hərbi feldşer işi ixtisasları üzrə orta ixtisas tibb işçiləri hazırlanır. Naxçıvanda icbari tibbi sığortaya keçid də əhalinin keyfiyyətli tibbi xidmətlərlə təminatına töhfə vermiş, bütün yaşayış məntəqələrində bu proses uğurla başa çatdırılmışdır. Göründüyü kimi, muxtar respublikada insan sağlamlığının qorunması sahəsində geniş imkanlar vardır. Artıq muxtar respublikada əhalinin təbii artımı orta ölüm göstəricilərini üstələyir, ana və uşaq ölümü ən aşağı həddədir.

Ali Məclisin Sədri demişdir: Müasir dünyamızda xəstəliklərlə mübarizə prioritet məsələdir. Bu da, öz növbəsində, ixtisaslı kadr hazırlığını və səhiyyə sistemində ən son elmi nailiyyətlərin tətbiqini zərurətə çevirib. Böyük filosof və tibb alimi İbn Sina deyirdi ki, “Ümidsiz xəstə yoxdur, ümidsiz həkim var”. Təcrübə də göstərir ki, həkimlərin peşəkarlığı artırılmadan nə səhiyyənin inkişafından, nə də insan sağlamlığından danışmaq mümkündür. Qarşılıqlı fikir mübadiləsinin aparılması, elmi-tibbi nailiyyətlərin öyrənilməsi və tətbiqi, beynəlxalq təcrübədən faydalanmaq, bu mənada, mühüm əhəmiyyətə malikdir.



Ali Məclisin Sədri Naxçıvanda keçirilən Birinci Beynəlxalq Tibbi Forumun dünyanın mötəbər universitetlərini təmsil edən tanınmış həkim və mütəxəssislər arasında birgə elmi tədqiqatların və fikir mübadiləsinin aparılmasında faydalı olacağına inamını ifadə etmiş, təşkilatçılara təşəkkürünü bildirmiş, forumun işinə uğurlar arzulamış və çıxışını ümummilli liderimiz Heydər Əliyevin ***“Hər bir sahə lazımdır. Amma özünü həkim sənətinə, insanların sağlamlığına, səhhətinə həsr edənlər ən qiymətli insanlardır. Çünki insan nə qədər sağlam olsa, öz sahəsində o qədər də yeni ixtiralar edəcək, nailiyyətlər qazanacaq və cəmiyyəti irəli aparacaqdır. Ona görə də mən belə hesab edirəm ki, həkimlik sənəti, yəni insanın sağlamlığının qorunması və müxtəlif xəstəliklərdən xilas edilməsi, onun daha da çox yaşaması üçün çalışan sahə daim inkişaf etməlidir”*** fikirləri ilə tamamlamışdır.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək demişdir ki, tibbi forumun Naxçıvan Muxtar Respublikasında keçirilməsi uzun illər ərzində qurulan müasir səhiyyə infrastrukturu və tibb təhsilinin keçdiyi dinamik inkişaf yolunun uğurlu yekunu kimi yüksək əhəmiyyətə malikdir. Bu müddətdə Naxçıvan Dövlət Universitetində də təhsil və elmi-tədqiqat işlərinin səviyyəsinin daha da yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, maddi-texniki bazanın əsaslı şəkildə möhkəmləndirilməsi və yenidən qurulması istiqamətində çoxşaxəli tədbirlər həyata keçirilmişdir. Təhsildə qloballaşma və beynəlmiləlləşmə faktorlarının mühüm əhəmiyyət kəsb etdiyi bir dövrdə universitetin dünyanın ən yaxşı ali məktəbləri sırasında yer alması qürurverici nailiyyətdir. 25 tələbə ilə fəaliyyətə başlayan Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində hazırda 1284 tələbə təhsil alır. Bildirilmişdir ki, dünyanın 7 ölkəsindən 350-dən artıq elm adamının qatıldığı forumda 700-dən çox iştirakçı təmsil olunur. Azərbaycan Tibb Universitetinin və xaricdən gələn həkim-mütəxəssislərin iştirakı ilə xəstələrin konsultativ müayinə, əməliyyat və müalicələrinin keçirilməsi planlaşdırılmışdır.

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli demişdir ki, qalib xalqın nümayəndələri kimi ulu öndər Heydər Əliyevin Vətəni Naxçıvanda unikal tərkibə malik forumda iştirak etmək qürurvericidir. Bir əsrə yaxın yaşı olan Azərbaycan Tibb Universitetinin inkişafında, maddi-texniki bazanın qurulmasında, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında ümummilli liderin rolu danılmazdır. Bu gün ulu öndərin siyasəti ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Tibb Universitetində kafedra və bölmələrin müasir avadanlıqlarla təchiz edilməsi ali tibb təhsilinə ölkə Prezidentinin qayğısının bariz nümunəsidir. Hazırda Azərbaycan Tibb Universiteti bölgəmizin qabaqcıl tədris müəssisələrindən biridir. Universitetimiz dünyanın 20 ölkəsindən 80-ə yaxın elm və təhsil qurumları ilə hərtərəfli əməkdaşlıq edir. Həmçinin Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universiteti arasında anlaşma memorandumu imzalanıb. Rektor bildirmişdir ki, forum iştirakçıları və mövzuların müxtəlifliyi təbabətin aktual problemlərinin həlli yolunda yüksək səviyyədə müzakirələrin aparılmasına imkan yaradacaqdır.

Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev çıxış edərək demişdir ki, səhiyyə sistemində islahatlar ölkəmizin stabil və sosial infrastrukturunun inkişafının qlobal strateji proqramının tərkib hissəsidir. Bu tədbirlər ümummilli lider Heydər Əliyev tərəfindən başladılmış, Onun təşəbbüsü ilə Azərbaycanın bütün bölgələrində tibb müəssisələri, xəstəxanalar tikilib istifadəyə verilmişdir. Ulu öndər milli tibbi kadrların hazırlanmasına da böyük önəm verirdi. Onun təşəbbüsü ilə həkimlərin Avropada, Amerikada, Rusiyada, Türkiyədə hazırlanması

*Ardı 2-ci səhifədə*

üzrə Dövlət proqramı işlənib hazırlanmışdır. Bu siyasəti ölkə Prezidenti cənab İlham Əliyev də uğurla davam etdirir. Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu müasir əsaslarla təmir edilmişdir. Milli Onkologiya Mərkəzi və Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi yenidən qurulmuş, yeni korpuslar tikilmiş və ən müasir avadanlıqlarla təchiz edilmişdir. Azərbaycanda tibbi təhsilin təkmilləşdirilməsi üçün dünyanın nüfuzlu təhsil mərkəzləri ilə əlaqələrin genişləndirilməsi məqsədilə 2015-ci ildə Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı yaradılmışdır. Universitetdə professor və müəllimlər tərəfindən tədris iki istiqamətdə – Müalicə işi ixtisası və Əczaçılıq sənayesi üzrə aparılır. Bu forum bizim həkimlərimiz üçün də mühüm rol oynayacaqdır. Onlara müasir müalicə protokolları ilə tanış olmağa və həmkarları ilə təcrübə mübadiləsi aparmağa imkan verəcəkdir.




Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyinin fəxri sədri Cavid Avcı təmsil etdiyi dərnəyin fəaliyyəti barədə danışmış, beynəlxalq səviyyədə həyata keçirdikləri layihələrdən bəhs etmişdir. Qeyd olunmuşdur ki, Endoskopik Laparoskopik Cərrahiyyə Dərnəyi 20 ildən artıqdır, Azərbaycanın müvafiq qurumları ilə əməkdaşlıq edir. Forumdan sonra yeni bir əməkdaşlıq istiqamətlərinin açılacağını bildirən Cavid Avcı Naxçıvan Dövlət Universiteti ilə qurulacaq əlaqələrin qürurverici olduğunu diqqətə çatdırmışdır.

Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyası İctimai Birliyinin məqsədin Azərbaycanın tibb alimləri, həkim-mütəxəssisləri ilə Türkiyə, Özbəkistan, Qazaxıstan, İran və Almaniyadan olan elm adamları arasında fikir mübadiləsinə şərait yaratmaq və birgə müzakirələr aparmaqdan ibarət olduğunu bildirmişdir. Qeyd olunmuşdur ki, bugünkü forumda gələcəkdə həkim olmaq arzusunda olan şagird və tələbələr də iştirak edir ki, bu da kadr hazırlığına mühüm töhfədir.

Yeditəpə Universitetinin rektoru Canan Aykut Bingöl demişdir ki, Naxçıvanda olmaq və tibbi forumda iştirak etmək bizim üçün çox əhəmiyyətlidir. Tibb ictimaiyyəti pandemiya dövründə elmi araşdırmaların, məlumat mübadiləsinin, təhsilin və texniki inkişafın vacibliyinin şahidi oldu. Forum da beynəlxalq səviyyədə çox faydalı müzakirələrin və elm mübadiləsinin aparılmasına vəsilə olacaqdır. Bu baxımdan Yeditəpə Universiteti bütün istiqamətlərdə əməkdaşlığa hazırdır.

Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı demişdir ki, Qaradəniz Texniki Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasındakı əməkdaşlıq, bugünkü forumda iştirak gələcəkdə birgə layihələrin icrası üçün geniş imkanlar açır. Tibbin inkişafında əsas məsələlərdən biri də avadanlıq təminatıdır. Tibbi avadanlıqların istehsalı, bu sahədə yerli mütəxəssis hazırlığı qarşıda duran əsas vəzifələrdəndir. Rektor təmsil etdiyi universitetin tibbi avadanlıqların istehsalı ilə bağlı həyata keçirəcəyi layihələrdən danışmış, forumun bu baxımdan əhəmiyyətini vurğulamışdır.

Çıxış edənlər forumun keçirilməsinə göstərilən dəstəyə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə iştirakçılar adından minnətdarlıq etmişlər.

Sonra Naxçıvanın tanıtım videoçarxı nümayiş olunmuşdur.

Forum bədii hissə ilə davam etmiş, Azərbaycan Respublikasının Xalq artistləri Mənsum İbrahimov və Samir Cəfərov, Azərbaycan Respublikasının Əməkdar artisti Nuriyyə Hüseynova və Naxçıvan Dövlət Universitetinin Simfonik Orkestrinin ifasında konsert proqramı təqdim edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Beynəlxalq Tibbi Forumun iştirakçıları Naxçıvanda



*Naxçıvanda keçirilən I Beynəlxalq Tibbi Forumun iştirakçıları Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət edib, abidə önünə gül dəstələri qoyub, ulu öndərə ehtiramlarını bildiriblər.*



Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı muzeyin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Ramil Orucəliyev qonaqlara məlumat verib ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əks etdirən muzey 10 may 1999-cu ildən fəaliyyət göstərir. 420 eksponatla fəaliyyətə başlayan bu mədəniyyət müəssisəsinin fondunda bu gün 5379 eksponat mövcuddur. Muzeyin kitabxanasında ümummilli liderin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar mühafizə və nümayiş olunur.

Ümummilli liderin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, dahi rəhbərin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən imzaladığı qərarlar, uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə məlumatlar qonaqlarda maraq doğurub. Ümummilli lider və Mustafa Kamal Atatürkün həyat yolu və siyasi fəaliyyəti ilə bağlı oxşar məqamlar qonaqların diqqətinə çatdırılıb. Qonaqlar muzeyin xatirə kitabına ürək sözlərini yazıb, xatirə şəkli çəkdiriblər.

# I Beynəlxalq Tibbi Forum çərçivəsində universitetlərarası yeni tərəfdaşlığın əsası qoyulub

*I Beynəlxalq Tibbi Forum çərçivəsində ali təhsilli tibbi kadr hazırlığı aparan, muxtar respublikanı yüksəkixtisaslı yerli tibb mütəxəssisi ilə təmin edən Naxçıvan Dövlət Universitetinin Azərbaycan Tibb Universiteti və Türkiyə Respublikasının Qaradəniz Texniki Universiteti ilə yeni tərəfdaşlığın əsası qoyulub.*





Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəylinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Naxçıvan Dövlət Universitetində görüş keçirilib. Universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, ali təhsil ocağının maddi-texniki bazası, fəaliyyəti və strukturu, beynəlxalq əlaqələri, yaradılmaqda olan Texnopark və onun fəaliyyət sahələri haqqında məlumat verib, yeni açılan ixtisaslar və gələcək perspektivlər vurğulanıb. Regionda ingilis dilinin fəaliyyətinə xüsusi dəstək məqsədilə ali təhsil ocağında qurulan IELTS qeydiyyat və imtahan mərkəzinin üstünlükləri və muxtar respublika təhsil sisteminə verəcəyi perspektivlər qeyd olunub.

Elbrus İsayev ali təhsil ocağında artıq 23 ildir, fəaliyyət göstərən Tibb fakültəsinin muxtar respublika səhiyyəsinə verdiyi töhfələri diqqətə çatdırıb. Bildirilib ki, muxtar respublikanın səhiyyə sisteminin kadrla təminatı baxımından 80 faizdən çox tibb personalı məhz universitetin tibb məzunları hesabına həyata keçirilir. Fakültə yarandığı dövrdən etibarən qardaş Türkiyə universitetləri ilə beynəlxalq əməkdaşlıq əlaqələri qurulub və hər il müəllim-tələbə heyəti həmin universitetlərdə təcrübə keçmək imkanı əldə edirlər. Bildirilib ki, universitetdə 32 ixtisas üzrə rezidentura təhsili həyata keçirilir.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilk dəfə Naxçıvan Dövlət Universitetində olmaqdan məmnunluğunu dilə gətirib. Bu ali təhsil ocağı ilə əlaqələrdən danışan professor hər iki universitet arasında uzun illərdir, davam edən birgə əməkdaşlıq məsələlərindən bəhs edib. Ölkədə tibb təhsilində ən birinci universitet olan Azərbaycan Tibb Universitetinin fəaliyyəti, buradakı fakültə və ixtisaslar haqqında məlumat verən professor Gəray Gəraybəyli gələcəkdə yeni ixtisaslar üzrə proqramlar hazırlandığını diqqətə çatdırıb. Vurğulanıb ki, xarici ölkələrdən professor-müəllim heyətinin universitetə dəvət olunması və təcrübə mübadiləsi tibb təhsilində beynəlxalq təcrübənin bölüşdürülməsi baxımından çox əhəmiyyətlidir. Rektor ali təhsil ocağında 6 dissertasiya şurasının fəaliyyət göstərdiyini diqqətə çatdırıb və Naxçıvan Dövlət Universitetinə də gələcəkdə bu sahədə xüsusi dəstək göstəriləcəyini qeyd edib.

Sonra universitetlər arasında birgə əməkdaşlıq məsələləri müzakirə olunub və əməkdaşlıq müqaviləsi imzalanıb.

I Beynəlxalq Tibbi Forum çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə Türkiyə Respublikasının Qaradəniz Texniki Universiteti arasında da birgə əməkdaşlığa dair müqavilə imzalanıb. Rektor Elbrus İsayev Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcının rəhbərlik etdiyi nümayəndə heyətini salamlayıb.



Elbrus İsayev rəhbərlik etdiyi ali təhsil ocağının artıq 55 ildir, fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Bildirilib ki, ali təhsil ocağında 8000-ə yaxın tələbənin tədrisi ilə 1000-ə yaxın akademik heyət məşğul olur. Vurğulanıb ki, ali təhsil ocağında bakalavr üzrə 70, magistraturada 80-dən çox, doktorantura pilləsi üzrə 40 və rezidentura mərhələsi üzrə 32 ixtisas üzrə kadr hazırlığı aparılır. Türkiyə universitetləri ilə əməkdaşlıq məsələlərini diqqətə çatdıran rektor ali təhsil ocağının beynəlxalq əməkdaşlığında qardaş ölkə universitetlərinin xüsusi payı olduğunu vurğulayıb. Diqqətə çatdırılıb ki, universitetdə qurulan Texnoparkda məhz Türkiyə universitetlərinin təcrübəsindən istifadə olunacaq, bu sahədə təcrübə mübadiləsi həyata keçiriləcək.

Qaradəniz Texniki Universitetinin rektoru Hamdullah Çuvalcı qeyd edib ki, rəhbərlik etdiyi ali təhsil ocağı Türkiyənin ən qədim universitetlərindən biri olmaqla texniki sahədə kadr hazırlığı həyata keçirilən universitetlər sırasındadır. Bildirilib ki, 30 minə yaxın tələbə sayı ilə Türkiyənin ən önəmli universitetləri sırasında olan Qaradəniz Texniki Universiteti Türkiyədə İstanbuldan sonra mühəndislik sahəsində təhsilin verildiyi ilk universitetlərdəndir.

Sonra hər iki universitet arasında birgə əməkdaşlığa dair protokol imzalanıb.

Naxçıvan Dövlət Universitetinin hər iki universitetlə imzaladığı əməkdaşlıq protokollarında təhsil prosesinin beynəlxalq standartlara uyğunlaşdırılması və inkişaf etdirilməsi, birgə elmi tədqiqatlar aparmaq, layihələr

*Ardı 3-cü səhifədə*

həyata keçirmək, təhsilin bütün sahələrində elmi mövzular haqqında məqalələr yazmaq, elmi-tədqiqat məlumatlarının və texniki materialların, həmçinin akademik, müəllim və tələbə mübadiləsini həyata keçirmək, konqres, konfrans, simpozium, seminar və digər birgə elmi tədbirlərin təşkili, prioritet innovativ layihələri birgə işləyib hazırlamaq və yaradılmış innovativ texnologiyaların və məhsulların tətbiqi üçün şərait yaratmaq məsələlərini müzakirə etmək nəzərdə tutulur.

Tədbirlərin sonunda rektorlar qarşılıqlı hədiyyələr təqdim ediblər. Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli və Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcı universitetin xatirə kitabına öz ürək sözlərini yazıblar.

Səfər proqramı çərçivəsində qonaqlar Tibb fakültəsi ilə də yaxından tanış olublar. Qonaqlara fakültə haqqında məlumat verilərək bildirilib ki, fakültə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ulu öndər Heydər Əliyevin dəstəyi ilə yaradılmışdır. 1999-cu ildə Təbiətşünaslıq fakültəsinin nəzdində Pediatriya ixtisasına 25 nəfərlik tələbə qəbulunun aparılması ilə Naxçıvan Dövlət Universitetində ali tibb təhsilinin təməli qoyulmuşdur. Tibb mütəxəssislərinin hazırlığı səviyyəsini yüksəltmək məqsədilə 2000-ci ildə 4 mərtəbəli, 35 çarpayılıq xəstəxanası olan tədris-kliniki korpus Pediatriya ixtisası üzrə təhsil alan tələbələrin və pedaqoji kollektivin istifadəsinə verilmişdir. Bununla belə 2003-cü ildən etibarən Pediatriya ixtisası Təbiətşünaslıq-tibb fakültəsinin tərkibindən ayrılaraq müstəqil Tibb fakültəsi kimi fəaliyyət göstərməyə başlamışdır.

İştirakçıların diqqətinə çatdırılıb ki, fakültənin maddi-texniki bazasını daha da möhkəmləndirmək və təhsilin keyfiyyətini yüksəltmək məqsədilə 2015-ci ildən etibarən universitetdə üçmərtəbəli kliniki xəstəxana istifadəyə verilmişdir. Universitet xəstəxanası müxtəlif xəstəliklərin müayinə və müalicəsi üçün ixtisaslaşmaqla yanaşı, tələbələrə universitet ərazisində praktik dərslərin keçilməsi üçün əlverişli imkanlar yaratmışdır. Fakültənin müasir tədris korpusu yenilikçi standartlara cavab verən avadanlıqlarla, kabinə və laboratoriyalarla təchiz edilmiş, müasir memarlıq üslubunda geniş foyelər, işıqlı auditoriyalar yaradılmışdır. Tələbələr ixtisaslarının profillərinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının müvafiq xəstəxanalarından baza xəstəxanası kimi istifadə edir. Kliniki dərslərin əksəriyyətini xəstəxanalarda, bilavasitə xəstələr üzərində keçilməsi üçün lazımi şərait yaradılmışdır. Eyni zamanda Naxçıvan Muxtar Respublika Xəstəxanasında əməliyyatları auditoriyalarda canlı izləmək üçün müvafiq qurğular qurulmuşdur.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***
**Xəbərlər şöbəsi**

## Forum iştirakçıları olan yüksəkixtisaslı həkimlər cərrahi əməliyyatlar, müalicə və müayinələr həyata keçiriblər, səhiyyə müəssisəsi ilə tanış olublar





Naxçıvan Muxtar Respublikasında ilk dəfə keçirilən I Beynəlxalq Tibbi Forumda iştirak edən yüksəkixtisaslı həkimlər Naxçıvanın bir neçə səhiyyə müəssisəsində cərrahi əməliyyatlar, müalicə və müayinələr həyata keçiriblər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru Əziz Əliyev və onun rəhbərlik etdiyi yüksəkixtisaslı həkim briqadası qalxanabənzər vəzidən əziyyət çəkən 3 nəfərdə cərrahi əməliyyat aparıb, 15 ambulator xəstənin müalicə və müayinəsi həyata keçirilib, onlara müvafiq tibbi məsləhət və tövsiyələr verilib.

Qeyd edək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində Azərbaycan Tibb Universitetinin həkim-mütəxəssisləri, mama-ginekoloqları, Diaqnostika Müalicə Mərkəzində isə Qaradəniz Texniki Universitetinin və Bakı şəhərində yerləşən "West Hospital"ın həkimləri tərəfindən pasiyentlərlə maarifləndirici söhbətlər aparılıb, xəstələr tibbi müayinələrə cəlb edilib, onlara müalicələr təyin olunub.

Naxçıvan Muxtar Respublikasının mühüm sağlamlıq turizmi obyektlərindən olan Duzdağ Fizioterapiya Mərkəzində isə qonaqlara məlumat verilib ki, mərkəz ilk olaraq 1979-cu ildən xəstəxana kimi Nax-



çıvan duz mədəni bazasında fəaliyyətə başlayıb. Müstəqilliyimizin bərpasından sonra burada kompleks quruculuq işləri aparılıb, yeraltı şöbə genişləndirilib, müasir avadanlıqlarla və ləvazimatlarla təmin edilib. Dağın altına doğru 300 metr uzanan mərkəzdə yüksək səviyyəli xidmət şəraiti yaradılıb. Hazırda ölkəmizin müxtəlif regionlarından, habelə dünyanın bir çox yerlərindən bronxial-astma xəstələri buraya gələrək müalicə alırlar.

**Xəbərlər şöbəsi**

## İlk dəfə keçirilən Beynəlxalq Tibbi Forumun iştirakçıları:
## "Naxçıvanda insan amili dövlət siyasətinin prioritetidir"

*Məlum olduğu kimi, 18-21 iyun tarixlərdə muxtar respublikamızda təşkil edilən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Naxçıvan Dövlət Universitetinin və 20-dən çox müxtəlif universitetlər və dərnəklərin təşkilatçılığı ilə baş tutmuş, 7 ölkədən 350-dən çox alim və mütəxəssisin iştirak etdiyi I Beynəlxalq Tibbi Forumu çərçivəsində forum nümayəndələri olan, tibb sahəsində tanınmış bir neçə alimin səfər təəssüratlarını öyrəndik.*

İlk müsahibimiz ***Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli*** oldu. Müsahibim



ölkəmizdə səhiyyənin inkişafından, bu sahədə potensial kadr hazırlığının əhəmiyyətindən söhbət açaraq dedi: – Bu gün artıq müstəqil Azərbaycanın hər bir sahəsində mövcud olan inkişaf və tərəqqi sürətlə irəliləyir və bir çox yeniliklərə imza atılır. Tarixən Azərbaycan istər tibb, istərsə də digər elm sahələrində, uğurları ilə həmişə seçilib. Bu gün ölkəmizdə sağlam əsaslarla qurulmuş, yaradılmış müasir səhiyyə sistemi var. Səhiyyə sistemində kadr potensialının artırılması, bu sahənin savadlı və yüksək bilikli kadrlarla zənginləşdirilməsi, eləcə də ölkəmizin bütün regionlarında fəaliyyət göstərən tibb müəssisələrində həkim və orta tibb işçilərinin ixtisasları üzrə bilik və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində respublikamızda mövcud olan ali təhsil ocaqlarının rolu çox böyükdür. Bu baxımdan da ölkəmizdə tibb ixtisası üzrə kadr hazırlığının həyata keçirilməsində bu gün iştirak etdiyimiz ilk Beynəlxalq Tibbi Foruma bələdçilik edən Naxçıvan Muxtar Respublikasının prestijli təhsil müəssisəsi olan Naxçıvan Dövlət Universiteti və yüz ilə yaxındır, fəaliyyət göstərən Azərbaycan Tibb Universiteti yeganə təhsil ünvanları kimi, xüsusilə seçilir. Ölkəmizdə bir ilk olan Beynəlxalq Tibbi Forum, inanıram ki, ali təhsil ocaqları arasındakı əlaqələrin tarixi tale yükünü müsbət məcrada istiqamətləndirəcək.

"Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetləri arasındakı sabit əməkdaşlıq gələcək uğurlarımızın, ən əsası isə tibb sahəsindəki karyeramızın təminatçısı olacaq", – deyən müsahibimiz ***Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcı*** bildirdi: – Naxçıvan Dövlət Universiteti ilə yaratdığımız qarşılıqlı, faydalı tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi yaxın gələcəkdə universitetlərimizin beynəlxalq imicinin güclənməsinə və xarici əlaqələrin yüksələn xətlə inkişafına təkan verəcək. Əlbəttə ki, bütün bunlardan qazanan isə həm muxtar respublikanın elmi və təhsili, həm də Türkiyə Respublikasının ali təhsil ocaqları, təhsil strategiyası olacaq.

Naxçıvan, həqiqətən, çox maraqlı bir şəhərdir. Təmiz küçələr, abad yollar, geniş park və xiyabanlar ilk görüşdən insanı özünə cəlb edir. Mənim kifayət qədər Naxçıvanla



bağlı təəssüratlarım var. Amma real şəkildə gəlib görmək, bu gözəlliyə əyani şəkildə tamaşa etmək çox fərqli bir hissdir. Bu diyarın insanları da tamam fərqli bir cazibəyə malikdirlər. İstər milli mətbəx nemətləri olsun, istər tanıdığım, münasibətdə olduğum insanlar olsun, mənə çox müsbət aura yaşadır. Məhz bunun nəticəsidir ki, Naxçıvan muxtar diyarı Azərbaycanda bir çox müsbət keyfiyyətlərinə görə lider nöqtədə dayanıb. Hesab edirəm ki, ilk tibbi forumun bu şəhərdə keçirilməsi də təsadüfi deyil. Naxçıvandan qayıtdıqdan sonra da əlimizdən gəldiyi qədər həmvətənlərimizə burada bizlər üçün yaradılan geniş şərait barədə ətraflı məlumat çatdıracağıq. İnanıram ki, bizim Naxçıvanla, naxçıvanlılarla istər təhsil, istərsə də digər sahələrdəki əməkdaşlığımız daha gözəl xarakter alacaqdır. Bizə göstərilən diqqətə görə isə başda muxtar respublika rəhbəri olmaqla təşkilatçılara minnətdarlığımızı bildiririk.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında aparılan cərrahi əməliyyatlar, müayinə və müalicələrdən sonra ***Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru, tibb elmləri doktoru, cərrah-onkoloq, professor Əziz Əliyev*** qəzetimizə Naxçıvanda ilk dəfə keçirilən



I Beynəlxalq Tibbi Forumun məqsədi, əhəmiyyəti barədə məlumat verdi və ümumilikdə, Naxçıvanla bağlı təəssüratlarını bizimlə bölüşdü: – Bu, Milli Onkoloji Mərkəzin komandası ilə birlikdə Naxçıvana üçüncü gəlişimizdir. Budəfəki səfərimizin məqsədi Naxçıvan Muxtar Respublikasında ilk dəfə keçirilən I Beynəlxalq Tibbi Forumda iştirak etməkdir. Hazırda Milli Onkoloji Mərkəzin 50-yə yaxın həkimi forumda iştirak etmək üçün Naxçıvandadır. Forumun keçirilməsi çox önəmli məqsəd daşıyır ki, bu da həkimlərin qarşılıqlı təcrübə mübadiləsi aparmalarına böyük imkan yaradır. Forum protokolların müzakirəsi və ən əsası müxtəlif xəstəliklərdən əziyyət çəkənlərin müalicə, müayinə və cərrahi əməliyyatlarının həyata keçirilməsinə şərait yaradır. Bu gün biz yerli həkimlərlə birlikdə xəstələrin baş-boyun nahiyələrində 3 uğurlu onkoloji əməliyyat apardıq. Həmçinin 10-dan çox xəstənin müayinə və müalicələrini həyata keçirdik. Onu da, xüsusilə qeyd etmək istərdim ki, xəstəxana ən yüksək səviyyədə qurulduğu və müasir avadanlıqlarla təchiz olunduğu üçün çox rahat şəkildə əməliyyatlarımızı apardıq. İstərdik ki, bu tədbirlər davamlı olsun, biz də Milli Onkoloji Mərkəz olaraq belə tədbirlərdə iştirak edək.

Qaldı ki, Naxçıvanla bağlı təəssüratlarıma ilk olaraq onu deyə bilərəm ki, hər dəfə Naxçıvana gəldikdə burada böyük inkişafın şahidi olur və bu inkişafa qəlbən sevinirik. Xüsusilə tibb sahəsində gedən müsbət irəliləyişlər göz qabağındadır. Bu da onu deməyə əsas verir ki, Naxçıvanda insan amili dövlət siyasətinin prioritetidir.

Digər müsahibim ***İstanbul Yeditəpə Universitetinin rektoru, professor Canan Aykut Bingöl*** Naxçıvan Dövlət



Universitetinin beynəlxalq təhsil arenasında, habelə qardaş Türkiyə Respublikasındakı təbliğatından, tanıdılmasından, habelə beynəlxalq forumun əhəmiyyətindən söhbət açaraq deyir:

– Qardaş Azərbaycan Respublikasının ən qədim mədəniyyət ocaqlarından biri olan Naxçıvan şəhəri dünyanın bir çox regionlarında tanınır və sevilir. Naxçıvana ilk dəfədir, səfər edirəm. Naxçıvanın rəngarəng və maraqlı mühiti, qonaqpərvər insanları, o cümlədən savadlı tələbəgəncləri bizi heyrətləndirdi. Səfərimiz çərçivəsində Naxçıvan Dövlət Universiteti ilə yaxından tanış olduq, regionun ən prestijli ali təhsil müəssisəsi haqqında geniş məlumat əldə etdik. Rektor Elbrus İsayevlə olan söhbətimizdə öyrəndik ki, Naxçıvan Dövlət Universitetində beynəlxalq əlaqələrin genişləndirilməsi, dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələri ilə səmərəli əməkdaşlığın təşkili sahəsində aparılan məqsədyönlü işlər hər zaman öz müsbət nəticələrini göstərir. Universitetlə maraqlanarkən onu da öyrəndik ki, xarici tələbələrin sayına görə Azərbaycan ali təhsil müəssisələri sırasında öncüllüyünü qoruyan Naxçıvan Dövlət Universitetində 10 ölkədən 1000-ə yaxın əcnəbi tələbə təhsil alır. Ən böyük üstünlüyü isə Türkiyənin tələbəgənclərinin təşkil etməsi həm bizi qürurlandırdı, həm də çox sevindirdi. Bununla yanaşı, həm bir pedaqoq nöqteyi-nəzərindən, həm də bir professor baxış bucağından mövzuya yanaşaraq qeyd etmək istəyirəm ki, müasir dövrümüzdə, qloballaşan dünyada milli mədəniyyət, tarixi və etnik köklərin birliyi ilə bir-birinə bağlı olan Azərbaycan Respublikası və Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də əməkdaşlıq və bərabərlik nümayiş etdirir. Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələrində Türkiyə Respublikasının özünəməxsus yeri vardır. Bununla yanaşı, forum çərçivəsində türk professor-alim kollektivinin burada iştirak etməsi, bir neçə ali təhsil ocağının da bu ali təhsil müəssisəsilə əlaqələr qurması, müqavilələr imzalaması, inanıram ki, gələcəkdə də bu münasibətlərimizin davamını gətirəcək. Naxçıvan haqqında düşüncələrimi dilə gətirmək lazımsa, qeyd etməliyəm ki, bu şəhərdə olan səliqə-sahman, təmizlik və sakittəbiətlilik, təbii ki, hər bir gəncin arzusudur. İnanıram ki, bu səfərlərimiz davamlı xarakter alacaq.

**Məcid RƏŞADƏTOĞLU**
**Gülcamal TAHİROVA**

## “Naxçıvan Saray” yeni xidmət kompleksində I Beynəlxalq Tibbi Forumun iştirakçıları üçün qala gecəsi təşkil edilib



*I Beynəlxalq Tibbi Forumun ilk günü “Naxçıvan Saray” yeni xidmət kompleksində keçirilən möhtəşəm qala gecəsi ilə başa çatıb. 400-ə yaxın forum nümayəndəsinin iştirak etdiyi tədbirdə möhtəşəm konsert proqramı təqdim olunub.*

Qala gecəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, hər kəsə xoş istirahət arzulayıb. Sonra forumun fəxri qonaqları üçün xatirə plaketi, Əməkdar incəsənət xadimləri üçün xatirə sertifikatı təqdim edilib. Qazaxıstanın milli geyimləri, müxtəlif hədiyyələr təqdim olunmuşdur.

Konsertdə Azərbaycan Respublikasının Əməkdar artistləri Gülyanaq Fərzəliyevanın, Tural Nəcəfovun, Mübariz Əsgərovun peşəkar ifaları, İncəsənət fakültəsinin tələbələrindən Rauf Bünyadzadə, Nuray Ağazadə və İsrafil Qibləliyevin səsləndirdiyi mahnılar, Həsən Həsənlinin ifasında saz havası və digər musiqi nömrələri qonaqlar tərəfindən alqışlarla qarşılanmış, gecəyə xüsusi bayram ovqatı bəxş etmişdir.









Qeyd edək ki, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Tibb Universiteti, Azərbaycan Endoskopik Laparoskopik Cərrahlar Assosiasiyasının təşkilatçılığı ilə Azərbaycan, ingilis və rus dillərində olmaqla, 3 dildə keçirilən forum Azərbaycan tibb tarixində təşkil edilən ilk tibbi forumdur. Dünyanın 7 ölkəsindən 350-dən artıq tibb sahəsi üzrə elm adamının bir araya toplaşdığı bu foruma 700-dən çox iştirakçı qatılıb. Beynəlxalq forumda ölkəmizin, eləcə də qardaş Türkiyə Respublikasının nüfuzlu ali təhsil ocaqlarının, Rusiya Vişnevskiy İnstitutu, Dağıstan Dövlət Tibb Universiteti, Özbəkistan Daşkənd Tibb Akademiyasının yüksək vəzifəli təmsilçiləri iştirak edirlər.

**Xəbərlər şöbəsi**

## İnsan Hüquqları Günü münasibətilə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında bilik yarışı keçirilib

*Dünən Naxçıvan şəhərindəki Gənclər Mərkəzində muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında 18 iyun – İnsan Hüquqları Günü münasibətilə bilik yarışı keçirilib.*

Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov açaraq bildirib ki, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə həyata keçirilmiş genişmiqyaslı islahatlar, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində baş verən köklü dəyişikliklər müstəqil Azərbaycanın qurucusu və memarı, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd olunub ki, 1995-ci il noyabrın 12-də ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu və insan hüquqları və azadlıqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi bəyan edən Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olunması ölkəmizdə insan hüquq və azadlıqlarına əsaslanan yeni dövlət quruculuğunun əsasını qoyub. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən müddətdə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilib. Bu sahəyə qayğının ifadəsi kimi ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli “Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında” Sərəncamına uyğun olaraq hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur və muxtar respublikada da bununla bağlı müxtəlif tədbirlər həyata keçirilir.



Tədbirdə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova çıxış edərək vurğulayıb ki, demokratiya və insan hüquqları, sosial tərəqqi kimi ümumbəşəri dəyərlərə sadiq olan və hüquqi dövlət quruculuğu yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişaf edən diyarına çevrilmiş Naxçıvan Muxtar Respublikasında da hüquq sisteminin müasirləşdirilməsi prosesinə uyğun olaraq insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsi, vətəndaşların hüquq institutlarına inamının artırılması, onların müraciət etmək imkanlarının asanlaşdırılması ilə bağlı həyata keçirilən mühüm islahatlar davam etdirilir.

Diqqətə çatdırılıb ki, bilik yarışmasının keçirilməsində əsas məqsəd gənclər arasında Azərbaycan Respublikası Konstitusiyasının, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının, Naxçıvanın muxtariyyətinin tarixi və hüquqi aspektlərinin hərtərəfli öyrənilməsinin təşviq edilməsi, intellektual səviyyəsi və dünyagörüşünün artırılması, muxtar respublikada istedad potensialının stimullaşdırılmasından ibarətdir.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasəti ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da məqsədyönlü şəkildə davam və inkişaf etdirilir. Son illər gənclərimizin muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, onların sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq Dövlət proqramlarının, irimiqyaslı layihələrin uğurla həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənc kadrların irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən tədbirlərdir.

Qeyd edilib ki, belə tədbirlər gənclərin hüquqi biliklərinin artırılması ilə yanaşı, onların cəmiyyətin bütün sahələrində fəal iştirakına da öz töhfəsini verir.

İştirakçılar yarışın şərtləri barədə ətraflı məlumatlandırıldıqdan sonra bilik yarışmasına start verilib. İki turdan ibarət bilik yarışında tələbələr komanda şəklində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarına, həmçinin muxtariyyətin tarixi və hüquqi aspektlərinə dair biliklərini sınayıblar.

Ali təhsil müəssisələrinin tələbələri arasında Naxçıvan Dövlət Universitetinin “Qarabağ” komandası birinci, “Naxçıvan” Universitetinin “Vətən” komandası ikinci, Naxçıvan Müəllimlər İnstitutunun “Zəfər” komandası isə üçüncü yerə layiq görülüb.

Orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında isə Naxçıvan Tibb Kollecinin “Loğman” komandası birinci, Naxçıvan Dövlət Texniki Kollecinin “Zirvə” komandası ikinci, Naxçıvan Musiqi Kollecinin “Simfoniya” komandası üçüncü yeri tutub.

Sonda qalib gəlmiş və fərqlənən komandalar Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Fəxri fərmanı və Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun diplomu ilə təltif olunub, onlara hədiyyələr təqdim edilib.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## Gənclərin asudə vaxtının səmərəli təşkili diqqət mərkəzindədir

*Ötən ay ərzində bədən tərbiyəsi və idmanın inkişafı, gənc nəslin sağlam və vətənpərvər ruhda formalaşdırılması, onlar üçün karyera və yeni fəaliyyət imkanları yaradılması və gənclərin cəmiyyətdəki aktivliyini artırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilib.*

Məktəblilərin ordu sıralarında hərbi xidmətə hazırlanmasına köməklik göstərilməsi məqsədilə təşkil olunan “Şahin” hərbi-idman oyunu üzrə Azərbaycan birinciliyinin final mərhələsində iştirak edən “Ordubad” komandası 3-cü yerə sahib çıxaraq mükafatçılar sırasına düşüb. Ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Vətən naminə” hərbi-idman oyunu keçirilib, Vətənimizin keşiyində dayanan hərbçilər üçün “Əsgərin kitab rəfi” adlı kitab toplama aksiyasına start verilib, bir qrup könüllü gəncin iştirakı ilə Sədərək rayonunda yaşayan şəhid ailələri ziyarət olunub. Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərən hərbçilərin və Milli qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən hazırlanan “Qəhrəmanlar unudulmur!” adlı videoçarxların sosial şəbəkələrdə yayımı davam etdirilib. Yeniyetmələr arasında “Xəmsə” milli intellektual oyunu üzrə muxtar respublika birinciliyinin final mərhələsi reallaşıb, gənclərin şəxsi inkişafına nail olmaqla onlarda özünəinam formalaşdırmaq və yeni karyera istiqamətləri müəyyənləşdirmək üçün Naxçıvan şəhərində “Səlis nitq və auditoriya qarşısında uğurlu çıxış”, Culfa rayonunda isə “Gələcək üçün maliyyə” mövzularında təlimlər təşkil olunub, rayon (şəhər) gənclərindən ibarət komandalar arasında “Gənclərin teatr dünyası”, həmçinin ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Səhnənin sehri” adlı teatr müsabiqələri davam etdirilib. “Naxçıvanı tanıyaq!” devizi ilə Şərur gənclərinin Ordubada səfəri təşkil olunub. Bundan başqa, Fransanın Strasburq şəhərində “Gənclərin hüquqlara çıxışı” layihəsi çərçivəsində Azərbaycandan olan milli, regional və yerli səviyyədə gənclərlə işləyən dövlət təşkilatlarının mütəxəssisləri və gənclərlə işləyən qeyri-hökumət təşkilatlarının nümayəndələri üçün təşkil olunan 5 günlük “50/50” təlimində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva da iştirak edib.

Hesabat ayı muxtar respublikanın idman həyatı üçün daha yaddaqalan və uğurlu olub. Hər il olduğu kimi, bu dəfə də ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan turnirlər təşkilatçılıq, kütləvilik və gərgin idman mübarizəsi ilə fərqlənib. Belə ki, Naxçıvan Şahmat Mərkəzində 8-14 may tarixlərini əhatə edən beynəlxalq şahmat turnirində Azərbaycan, İran, Türkiyə və Ukraynadan olmaqla, ümumilikdə, 214 idmançı mübarizə aparıb, muxtar respublikanı təmsil edən 81 zəka sahibindən ikisi – Sadiq Məmmədov (VI) və Toğrul Həsənzadə (IX) ilk onluqda qərarlaşıblar. Eyni zamanda ali və orta ixtisas təhsili müəssisələrinin, eləcə də şəhər və rayon komandalarının oğlan və qız atletləri arasında 5 kilometr məsafəyə kross qaçışı, yeniyetmə və gənclər arasında boks, kikboksinq, idman dırmanması, 2005-2007-ci illər təvəllüdlü idmançılar arasında sərbəst güləş, sağlamlıq imkanları məhdud uşaqlar və böyüklər arasında boccia, kişilərdən ibarət komandalar arasında voleybol, məktəblilər arasında basketbol, gənclər arasında peyntbol və Yeni Azərbaycan Partiyasının gənc üzvləri arasında minifutbol üzrə “Heydər Əliyev kuboku” uğrunda muxtar respublika turnirləri keçirilib. Ümumilikdə, min iştirakçı həmin yarışlarda öz qüvvəsini sınayıb. Bundan əlavə, hesabat dövrü ərzində uşaq futbolu komandalarının Bakı şəhərində keçirilən AFFA uşaq futbolu liqalarında iştirakı təmin edilib, stend atıcılığı üzrə muxtar respublika açıq birinciliyi təşkil olunub.

Ötən ay idmançılarımızın ölkə və beynəlxalq arenalardakı çıxışı da uğurlu alınıb, müxtəlif nailiyyətlər qazanılıb. Karateçilərimiz “fudokan” üzrə birinci açıq Sumqayıt şəhər birinciliyi və çempionatını toplamda 25 medalla bitiriblər. Bolqarıstanın Albena Kranevo şəhərində keçirilən 12-ci Avropa Şotokan Çempionatında isə 7-si qızıl, 7-si gümüş və 16-sı bürünc olmaqla, 30 medal qazanılıb. Bu, Naxçıvan idmanı tarixində beynəlxalq yarışda qazanılan ən yüksək göstəricidir. Atletimiz Əmrah Nağıyev iştirak etdiyi yarışlarda ardıcıl nailiyyətlər əldə edib: “Bakı Marafonu-2022”-də (21 kilometr) 2399 idmançı arasında 19-cu, “Parlaq gələcək naminə qaç!” marafonunda 3000 metr məsafə üzrə qalib, Əməkdar məşqçi Əfqan Səfərovun xatirəsinə həsr olunmuş beynəlxalq turnirdə 1500 metr məsafəyə qaçış üzrə qalib, 3000 metr məsafədə isə ikinci yer. Digər atletimiz Həsən Babayev 5 və 17 yaşadək yeniyetmə oğlan və qızlar arasında ağır atletika üzrə ölkə birinciliyində yaşı 15-ə qədər olan atletlərin yarışında 89 kiloqram çəki dərəcəsi üzrə qızıl medal qazanıb. Kikboksçumuz Ruslan Musayev kişilər arasında XXVI Azərbaycan çempionatında 67 kiloqram çəki dərəcəsi üzrə “full contact” üslubunda gümüş medal əldə edib. Futbol üzrə AFFA Region Liqasında keçirilən üçüncülük matçında “Qusar” komandasını 2:1 hesabı ilə məğlub edən “Araz-Naxçıvan” liqanın bürünc mükafatçısı olub.

İdman federasiyaları üçün mütəmadi təşkil olunan ekskursiyalar çərçivəsində Atletika və Basketbol federasiyalarının təmsilçiləri Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 551